# Azərbaycan Respublikası Hesablama Palatasının 2008-ci ildəki fəaliyyəti haqqında hesabat

Hesablama Palatasının 2008-ci ildəki fəaliyyəti qüvvədə olan qanunvericilik aktlarına, təsdiq olunmuş İş planına və digər müvafiq normativ sənədlərə əsasən həyata keçirilmişdir.

Hesabatda səmərəli dövlət maliyyə nəzarəti sisteminin yaradılması və inkişaf etdirilməsinin ictimai tələbata çevrilməklə əsas vəzifələrdən biri olması xüsusi qeyd edilmiş və vurğulanmışdır ki, hesabat ilində dünya maliyyə bazarlarında hökm sürən böhranın təsirinin yumşaldılması və tədricən aradan qaldırılması istiqamətində beynəlxalq maliyyə təşkilatları tərəfindən irəli sürülən təkliflərdən biri beynəlxalq səviyyədə zəruri maliyyə nəzarətinin yaradılması və müvafiq mexanizmlərlə təmin edilməsi olmuşdur. Qlobal iqtisadi böhranın ölkə iqtisadiyyatına təsirinin cüzi olmasına baxmayaraq, respublikada dövlət maliyyə nəzarəti məsələsinə ciddi diqqət yetirilmişdir.

Dəyişən iqtisadi şəraitə uyğun dövlət nəzarətini və dövlətin malik olduğu vəsaitlərin şəffaf, məqsədyönlü, məhsuldar və qənaətlə istifadə edilməsini təmin etmək üçün 2008-ci ildə "Hesablama Palatası haqqında" Azərbaycan Pespublikasının Qanununa müvafiq dəyişikliklər edilmiş, əməkdaşların maliyyə təminatının yaxşılaşdırılması ilə yanaşı Palataya əlavə səlahiyyətlər verilmişdir. Belə ki, Palataya zəruri hallarda özünün yerli strukturlarını yaratmaq, maliyyə-büdcə nəzarəti tədbirlərinin nəticələri üzrə aşkar olunmuş nöqsanların aradan qaldırılması, dövlətə dəyən zərərin ödənilməsi  və qanunvericiliyin pozulmasına görə şəxslərin məsuliyyətə cəlb edilməsi üçün müvafiq dövlət orqanlarına təqdimatlar göndərmək, bu təqdimatların əsassız olaraq icra edilmədiyi hallarda isə Palata Sədrinin qərarı ilə həmin qurumların xəzinə və bank hesabları üzrə qanunvericilikdə nəzərdə tutulmuş müdafiə olunan xərc maddələri istisna olmaqla, əməliyyatların dayandırılması barədə təqdimatlar vermək səlahiyyəti verilmişdir.

Palataya verilən əlavə səlahiyyətlər onun nəzarət tədbirlərinin keyfiyyətinə, sayına və əhatə dairəsinə təsir göstərmiş və 2008-ci ildə həyata keçirilmiş nəzarət tədbirlərinin sayı əvvəlki illərlə müqayisədə bir neçə dəfə artmışdır. Belə ki, 2008-ci ildə 23 audit, 21 ekspert-analitik tədbir və 1 monitorinqin keçirilməsi təmin edilmiş, Hesablama Palatasının bəzi üzvlərinin (Sədr müavininin və 4 Auditorun) səlahiyyət müddətinin hesabat ilində başa çatması və onların yenidən seçilməsi zərurəti ilə əlaqədar olaraq 3 obyekt üzrə audit və 1 obyekt üzrə isə ekspert-analitik tədbirin icrası 2009-cu ilə keçirilərək müvafiq qaydada İş planında nəzərə alınmışdır.

Qeyd edilmişdir ki, hesabat ilində yalnız Hesablama Palatası tərəfindən nəzərdə tutulan və İş planı ilə təsdiq edilən nəzarət tədbirləri həyata keçirilmiş, İş planının formalaşdırılması zamanı və hesabat ili ərzində Azərbaycan Respublikasının Prezidentindən, Azərbaycan Respublikasının Milli Məclisindən və Azərbaycan Respublikasının Milli Məclisinin daimi komissiyalarından hər hansı tapşırıq, sorğu və təklif daxil olmamışdır.

Hesablama Palatasının fəaliyyətini tənzimləmək məqsədilə 2008-ci il ərzində Palatanın 51 iclası keçirilmiş və həmin iclaslarda funksional vəzifələrin icrası, o cümlədən maliyyə-büdcə nəzarəti tədbirlərinin keçirilməsi ilə bağlı müvafiq qərarlar qəbul edilmişdir.

Nəzarət tədbirlərinin həyata keçirilməsi üçün Palatanın müxtəlif fəaliyyət istiqamətləri üzrə müəyyən edilmiş məlumat formalarının təkmilləşdirilməsi, mövcud məlumat bazasının daha da gücləndirilməsi və son 3 ili əhatə edən bazanın formalaşdırılmasının təmin edilməsi məqsədilə 2007-ci ildə həyata keçirilmiş işlər hesabat ilində də davam etdirilmişdir.

2008-ci ildə Hesablama Palatasına dövlət təşkilatlarından, muxtəlif yerli və xarici təşkilatlardan 1631 sənəd daxil olmuşdur. Bunlardan 237-si dövlət hakimiyyəti orqanlarından, 1090-ı dövlət təşkilatlarından, 188-i xarici təşkilatlardan, 90-ı müxtəlif yerli təşkilatlardan və 26-sı isə digər orqanlardan daxil olmuşdur.

Hesablama Palatası tərəfindən 2008-ci il ərzində 1087 məktub müxtəlif ünvanlara, o cümlədən 24-ü dövlət hakimiyyəti orqanlarına, 688-i dövlət təşkilatlarına, 139-u xarici təşkilatlara, 162-si müxtəlif yerli təşkilatlara, 74-ü isə

müxtəlif orqanlara göndərilmiş, hesabat ilində ümumi sənəd dövriyyəsi 2007-ci illə müqayisədə 61,5% çox olmuşdur. Hesabat ilində əvvəlki illərdən fərqli olaraq Palatanın xarici təşkilatlarla əlaqələrinin gücləndirilməsinə, dövlət nəzarətini həyata keçirən digər dövlət orqanları ilə işgüzar əlaqələrin yaradılmasına, nəzarət tədbirlərinin yüksək səviyyədə təşkili və aparılmasını təmin etmək üçün zəruri məlumatlatın əldə olunmasına daha çox diqqət yetirilmişdir.

Bununla yanaşı, Palatanın kadr potensialının və texniki təminatının gücləndirilməsinə, yeni yüksək ixtisaslı kadrların işə cəlb edilməsinə, iş şəraitinin yaxşılaşdırılmasına, metodoloji təminatın təkmilləşdirilməsinə, normativ-metodiki sənədlərin hazırlanmasına və s. xüsusi diqqət yetirilmişdir. Ötən dövr ərzində Palatanın fəaliyyətini yeni tələblər səviyyəsində tənzimləmək üçün çoxlu sayda yeni normativ-metodiki sənədlər hazırlanmış, bu sənədlərin Palatanın bütün fəaliyyət istiqamətlərini əhatə etməsi nəzərdə tutulmuşdur.

Qanunvericiliklə müəyyən olunmuş funksiyalarının icrasına uyğun olaraq 2008-ci ildə analitik fəaliyyət sahəsində Palata tərəfindən aşağıdakı rəylər hazırlanmışdır:

- "Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və büdcənin icrasına dair hesabata rəy;
- "Azərbaycan Respublikasının 2008-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsinə rəy;
- "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2008-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsinə rəy;
- "Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə rəy;
- "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2009-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə rəy.

Hesabat dövründə 2008-ci il üçün İş planına uyğun olaraq Hesablama Palatasının müxtəlif fəaliyyət istiqamətlərini əhatə edən audit tədbirləri və analitik təhlil işləri həyata keçirilmişdir. Bu tədbirlər və təhlil işləri vergi gəlirlərinin qanunvericiliyə uyğun formalaşdırılması və icrası vəziyyətinin araşdırılması, dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi, strukturu və təyinatı üzrə vaxtında və səmərəli istifadə olunmasını, habelə bu vəsaitlər üzrə maliyyə əməliyyatlarının qanunvericiliklə müəyyən edilmiş qaydalara və müddətlərə uyğun həyata keçirilməsini müəyyən etmək məqsədilə aparılmışdır.

Hesabat dövründə 2008-ci ilin İş planına uyğun olaraq Palata tərəfindən müvafiq nəzarət tədbirləri həyata keçirilmişdir. Bu tədbirlər nəticəsində bir sıra nöqsan, çatışmazlıq və maliyyə pozuntuları aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, bunların əksəriyyəti qüvvədə olan normativ-hüquqi sənədlərin tələblərinin gözlənilməməsi, mövcud norma və normativlərə əməl olunmaması, təşkilati idarəetmənin və uçot-hesabat işlərinin düzgün təşkil olunmaması, vergi və maliyyə inzibatçılığının tətbiqində buraxılmış səhvlər, habelə bir çox qanunvericilik aktlarının və normativ sənədlərin mövcud şəraitə uyğun olmaması, müvəqqəti norma və ya normativlər şəklində təsdiq edilərək uzun müddət ərzində istifadə edilməsi, funksiya və səlahiyyətlərdə təkrarçılığa yol verilməsi, bəzi hallarda müvafiq normativ sənədlərin indiyədək hazırlanmaması nəticəsində yaranan boşluqlar nəticəsində baş vermişdir. Palata yalnız nöqsan, çatışmazlıq və maliyyə pozuntularının aşkar edilməsi ilə kifayətlənməmiş, onların aradan qaldırılması, dövlətə dəyən zərərin ödənilməsi, günahkar şəxslərin müvafiq qaydada cəzalandırılması üçün müvafiq tədbirlər həyata keçirmişdir. Belə ki, həyata keçirilmiş maliyyə-büdcə nəzarəti tədbirlərinin nəticələri əsasında bəzi ciddi nöqsanlar aşkar edilmiş yoxlama materialı müvafiq qaydada araşdırılmaq üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmiş, bir sıra büdcə təşkilatı tərəfindən artıq alınmış vəsaitin müvafiq xəzinə hesabına geri qaytarılması, podratçı təşkilat tərəfindən başa çatdırılmamış və keyfiyyətsiz icra olunmuş tamamlama işləri də daxil olmaqla əlavə təmir-tikinti işlərinin yerinə yetirilməsi, inventar və avadanlıqların bərpa olunması, əsas vəsaitlər və az qiymətli tezköhnələn əşyalar üzrə aşkar olunmuş artıqgəlmənin bərpa edilməsi, uçotdan

yayındırılmış vəsaitlərin yığılaraq büdcəyə köçürülməsi, yol verilmiş nöqsanların aradan qaldırılması nəticəsində vəsaitlərdən səmərəsiz istifadə edilməsinin qarşısının alınması təmin edilmiş, nöqsan və çatışmazlıqlara yol verən məsul şəxslər barəsində aidiyyəti orqanlar tərəfindən inzibati tədbirlər görülmüşdür.

Eyni zamanda, qüvvədə olan qanunvericilik aktlarında aşkar edilən boşluqların və ziddiyyətlərin aradan qaldırılması, mövcud iqtisadi durumun tələblərinə uyğun olmayan normativ-metodiki sənədlərin təkmilləşdirilməsi və ya yenidən hazırlanması üçün Palata tərəfindən müvafiq təkliflər aidiyyəti orqanlara göndərilmişdir.

Hesabat ilində Palata cari fəaliyyətini "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa və Hesablama Palatasının Daxili Nizamnaməsinə və digər qanunvericilik aktlarının tələblərinə uyğun qurmaq, büdcə prosesində aktiv iştirak etmək və bu prosesin əsas iştirakçıları olan dövlət orqanları ilə münasibətləri daha çevik tənzimləmək üçün müvafiq tədbirlər həyata keçirmiş və reqlamentləşdirmək üçün bir sıra normativ sənədlər hazırlamışdır, o cümlədən:

- "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 29.5-ci maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının büdcəsinin icrasına nəzarəti həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikası Milli Məclisinin Sədrinin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Hesablama Palatasının yerli strukturunun yaradılması barədə 2008-ci il 22 avqust tarixli 01-5-5 nömrəli razılıq məktubuna əsasən Palatanın 2008-ci il 19 sentyabr tarixli 50 nömrəli əmri ilə Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi yaradılmışdır. İdarənin fəaliyyət dairəsi kimi Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiq edilməsi və icrası, Naxçıvan Muxtar Respublikasında dövlət əmlakının idarə edilməsi, onun barəsində sərəncam verilməsi, dövlət əmlakının özəlləşdirilməsindən əldə olunan vəsaitlərin dövlət büdcəsinə daxil olması, hüquqi şəxslərə və bələdiyyələrə Naxçıvan Muxtar Respublikasının büdcəsindən ayrılmış vəsaitlərin təyinatı üzrə istifadə edilməsi və qanunvericiliklə müəyyən edilmiş digər məsələlər üzərində nəzarət tədbirlərinin həyata keçirilməsi müəyyən edilmişdir. Eyni zamanda, İdarə Naxçıvan Muxtar Respublikasının büdcə və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcə layihələrinin tərtibi, büdcənin icrası ilə bağlı qanun layihələrinə

rəylərin hazırlanması, Muxtar Respublikada maliyyə-büdcə nəzarəti tədbirlərinin həyata keçirilməsi, aşkar edilmiş nöqsan, çatışmazlıq və maliyyə pozuntularının aradan qaldırılması, yol veriləcək səmərəsiz xərclərin qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi və s. kimi funksiyaların yerinə yetirilməsinə məsuliyyət daşıyır. Təsdiq edilimiş Əsasnaməyə uyğun olaraq funksiya və səlahiyyətlərini səmərəli yerinə yetirmək üçün İdarə zəruri ştat vahidi, təşkilati texnika və avadanlıqlarla təmin edilmiş, Muxtar Respublikanın rəhbərliyi tərəfindən zəruri iş şəraiti yaradılmışdır;

- Hesablama Palatasının fəaliyyətini tənzimləmək məqsədi ilə Hesablama Palatasının 2008-ci il 29 avqust tarixli 47 nömrəli əmri ilə Palatanın struktur bölmələrinin Əsasnamələri təsdiq edilmişdir;

- Azərbaycan Respublikası Hesablama Palatasında 2008-ci ildə sədr, sədrin müavini, auditorlar və Aparatın rəhbəri tərəfindən vətəndaşların qəbul edilməsi, qəbul günlərini və saatlarını əks etdirən cədvəl Hesablama Palatasının 2007-ci il 13 dekabr tarixli 71 nömrəli əmri ilə təsdiq edilmişdir;

- Hesablama Palatası tərəfindən 2008-ci il ərzində Palataya daxil olan ərizələrə "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1998-ci il tarixli 52 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları"na və Hesablama Palatasının 2007-ci il 03 avqust tarixli 19/151 nömrəli iclas qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hesablama Palatasında vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlıq işlərinin aparılması və Palatada vətəndaşların qəbulu Qaydaları"na uyğun olaraq vaxtında baxılmış, müvafiq qaydada araşdırılaraq ərizəçilər məlumatlandırılmış və zəruri hallarda həmin ərizəçilər məsul şəxslər tərəfindən qəbul edilmiş və onları maraqlandıran suallar cavablandırılmışdır;

- 2008-ci il ərzində Hesablama Palatasının 27 əməkdaşına Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına vəzifədə qulluq stajına görə əlavə

haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları" ilə müəyyən edilmiş qaydada dövlət qulluğunda stajına görə tamamlanmış illər üzrə əlavə haqqın verilməsi rəsmiləşdirilmişdir;

- əvvəlki ildə olduğu kimi, hesabat ilində də Hesablama Palatasının rəhbərliyi tərəfindən səriştəli və yüksək ixtisaslı mütəxəssislərin işə cəlb olunmasına və əməkdaşların bacarıq və qabiliyyətlərinin artırılmasına, kadrların peşəkarlıq səviyyəsinin yüksək olmasına, mövcud qanunvericiliyin tələblərinə, daxili nizam-intizam və etik qaydalara riayət edilməsinə xüsusi diqqət yetirilmişdir;

- auditin keçirilməsini mərhələlərlə beynəlxalq audit standartlarına uyğun təşkil etmək məqsədi ilə Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI) rəhbər prinsiplərini əks etdirən və ali audit standartları hesab olunan "Auditin rəhbər prinsiplərinin Lima Bəyannaməsi" (ISSAI I) və "Etika Məcəlləsi" (ISSAI 30) Azərbaycan dilinə tərcümə edilmiş və tərcümə Hesablama Palatasının 2008-ci il 05 sentyabr tarixli 30 nömrəli Qərarı ilə bəyənilmiş və onun yayımlanması qərara alınmışdır.

Palata öz işini cari fəaliyyətlə məhdudlaşdırmamış, hökumət tərəfindən sosial-iqtisadi siyasətin seçilmiş əsas strateji məqsədlərinə (o cümlədən, makroiqtisadi sabitliyin qorunması və sosial-iqtisadi inkişafın dəstəklənməsi) və onun reallaşdırılması üçün nəzərdə tutulmuş tədbirlərə (o cümlədən, iqtisadiyyatın strukturunun optimallaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, təbii resurslardan istifadənin səmərəliliyinin artırılması istiqamətlərində ortamüddətli tədbirlər kompleksinin həyata keçirilməsi və s.) uyğun qurmaq məqsədilə Strateji İnkişaf Planının reallaşdırması istiqamətində müəyyən tədbirlər həyata keçirmişdir.

Hesabatda "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin tələblərinə əsasən digər dövlət nəzarəti orqanları ilə qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərmək, onlarla qarşılıqlı işgüzar əməkdaşlığı inkişaf etdirmək üçün Hesablama Palatası tərəfindən bir sıra dövlət orqanları, o cümlədən, 2008-ci il 2 sentyabr tarixində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, 2008-ci il 17 noyabr tarixində Azərbaycan Respublikasının Vergilər Nazirliyi, 2008-ci il 01 dekabr tarixində Azərbaycan Respublikasının Baş

Prokurorluğu ilə bağlanılmış Razılaşma Memorandumları barədə məlumat əks etdirilmişdir.

Hesablama Palatasının fəaliyyətini INTOSAI standartlarının və mövcud qanunvericilik aktlarının tələblərinə uygun təşkil etmək, funksiya və səlahiyyətləri mövcud şəraitə uyğun həyata keçirmək məqsədilə müvafiq qanunvericilik çərçivəsinin yaradılması və normativ-metodiki sənədlərin hazırlanması sahəsində görülmüş işlər barədə hesabatda müvafiq məlumatlar qeyd edilmişdir. Belə ki, "Dövlət qulluğu haqqında", «Əmək pensiyaları haqqında» və «Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında», «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında», «Dövlət sirri haqqında», «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Qanunlarına, Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli, 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları»na, Azərbaycan Respublikasının 2002-ci il 5 mart tarixli, 269-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsi»nə, Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2003-cü il tarixli, 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli, 1373 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Hava Yolları» Dövlət Konserninin «Heydər Əliyev» Beynəlxalq Aeroportunda, Gəncə, Naxçıvan beynəlxalq hava limanlarında və Yevlax hava limanında Rəsmi nümayəndə heyətləri (VİP) salonunun xidmətlərindən istifadə hüququ olan vəzifəli şəxslərin Siyahısı»na və «Ezamiyyə xərclərinin normaları haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli, 14 nömrəli Qərarına əlavə və dəyişikliklərin edilməsi barədə Hesablama Palatası öz təkliflərini bildirmiş, Azərbaycan Respublikası Nazirlər Kabunetinin müraciətinə əsasən Palata tərəfindən "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsinə rəy verilmiş, habelə Albaniya, Çexiya, Rusiya, Ukrayna, Qırğızıstan, Latviya, Macarıstan, Moldova, Polşa, Rumıniya və digər ölkələrin ali audit qurumlarının

fəaliyyəti üzrə qazanılmış təcrübələr nəzərə alınmaqla Lima Bəyannaməsinin prinsiplərinə uyğun Hesablama Palatasının əməkdaşlarının maddi təminatlarının yaxşılaşdırılması istiqamətində zəruri qərarlar qəbul edilmişdir. Bundan başqa, "Azərbaycan Respublikası Hesablama Palatasının normativ-metodiki sənədlərinin hazırlanması və rəsmiləşdirilməsi Qaydaları", "Hesablama Palatasının işinin planlaşdırılması Qaydaları", "Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən maliyyə-büdcə nəzarəti tədbirlərinin hazırlanması, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları", "Azərbaycan Respublikası Hesablama Palatasının Kollegiya iclaslarının iş Qaydaları", "Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyəti barədə məlumatların hazırlanması və kütləvi informasiya vasitələrində yayılması Qaydaları" hazırlanmış, "Azərbaycan Respublikası Hesablama Palatasının balansında olan nəqliyyat vasitələrinin təmiri Qaydaları" tərtib edilmişdir.

Hesabat ilində Azərbaycan Respublikasının Hesablama Palatası Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI), INTOSAI-nin Regional İşçi Qrupları olan Ali Audit Qurumlarının Avropa Təşkilatının (EUROSAI) və Ali Audit Qurumlarının Asiya Təşkilatının (ASOSAI), habelə İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv olan ölkələrin Ali Audit Qurumları Birliyinin (ECOSAI) və MDB iştirakçısı olan dövlətlərin Ali Maliyyə Nəzarəti Orqanlarının (AMNO) rəhbərləri Şurasının üzvü kimi həmin təşkilatlarla əlaqələrin inkişafı və möhkəmləndirilməsi, bir sıra xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən orqanlar ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq sahələrində kompleks işlərin aparılmasını davam etdirmişdir. Belə ki, Palatanın nümayəndələri 2008-ci ilin iyununda Polşanın Krakov şəhərində EUROSAI-nin VII Konqresində, 2008-ci ilin iyununda Qətər Milli Audit Bürosu və Qətərin Düzgünlük və Şəffaflıq üzrə Milli Komitəsinin təşkilatçılığı, Birləşmiş Millətlər Təşkilatının dəstəyi ilə "Korrupsiyasız Asiya: uzunmüddətli baxış" mövzusunda beynəlxalq konfransın işində, iyul ayında Bişkek şəhərində ECOSAI-nin İdarə Heyətinin XIII Toplantısında, 2008-cı ilin sentyabrında Moskva şəhərində MDB iştirakçısı olan dövlətlərin ali maliyyə nəzarəti orqanlarının rəhbərləri Şurasının VIII sessiyasında, 2008-ci ilin dekabr ayında MDB iştirakçısı olan

dövlətlərin ali maliyyə nəzarəti orqanlarının rəhbərləri Şurasının yanında əsas milli göstəricilər üzrə Ekspert qrupunun işində iştirak etmişdir. Bundan başqa, INTOSAI-nin bir sıra audit standartının layihə sənədləri Palata tərəfindən araşdırılmış və müvafiq rəylər verilmiş, Türkiyə Cümhuriyyəti Sayıştay Başqanlığının müfəttişləri Hesablama Palatasında xidməti ezamiyyədə olmuş və vəziyyətin təhlili, strateji planlama, tətbiq etmə, ölçmə və ya dəyərləndirmə, standartdan kənar halların və səbəblərin dəyərləndirilməsi, məsləhət xidməti və ya əlavə çalışma istiqamətlərində səmərəli seminarlar keçirilmiş, habelə INTOSAI, EUROSAI və ASOSAI təşkilatlarının maliyyə dəstəyi və Palatanın öz vəsaitləri hesabına Hesablama Palatasının 13 əməkdaşı 12 ölkədə müxtəlif beynəlxalq miqyaslı tədbirlərdə iştirak etmişdir.

Hesabat ilində Hesablama Palatasının fəaliyyəti barədə mütəmadi olaraq kütləvi informasiya vasitələrinə məlumatların verilməsi və bu istiqamətdə şəffaflığın təmin edilməsi məqsədi ilə yeni variantda "Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyəti barədə məlumatların hazırlanması və kütləvi informasiya vasitələrində yayılması Qaydaları" hazırlanmış və Palatanın fəaliyyəti barədə məlumatların verilməsində operativliyin təmin edilməsi üçün informasiyalar daha çox WEB-saytda yerləşdirilmişdir. Hesabat ilində Palatanın WEB-saytı əsaslı şəkildə yeniləşdirilmiş və Palatanın bütün fəaliyyət istiqamətlərini əhatə etməklə köklü surətdə təkmilləşdirilmişdir.

Eyni zamanda, hesabat dövründə Palata tərəfindən telefon və faks vasitəsi ilə, şifahi informasiya sorğuları əsasında da KİV-ə müvafiq məlumatlar verilmişdir.

Hesabat dövründə Hesablama Palatasının fəaliyyəti barədə KİV-ə müntəzəm olaraq məlumatlar verilmiş, ayrı-ayrı informasiya agentlikləri və mətbuat orqanlarından Palataya daxil olmuş informasiya sorğuları müvafiq surətdə cavablandırılmış, həmçinin Palatanın informasiya-kommunikasiya təminatına da xüsusi diqqət yetirilmişdir.

Hesablama Palatasının fəaliyyətini səmərəli təşkil etmək üçün 2008-ci ilin dövlət büdcəsində 2443,7 min manat və ya 2007-ci illə müqayisədə 368,5 min manat çox vəsait nəzərdə tutulmuş və həmin vəsaitdən cəmi 1873,3 min manat istifadə

edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 327,2 min manat çoxdur. Lakin bununla belə, ayrılmış vəsaitlərin Palata tərəfindən qənaətlə və səmərəli istifadə edilməsi, nəticəliliyin yüksəldilməsi, əvvəlki ildə olduğu kimi, hesabat ilində də diqqət mərkəzində saxlanılmış və Palatanın büdcə proqnozu 76,7% səviyyəsində icra olunmuşdur.

Xərc maddələrində "Əməyin ödənişi" bölməsi ümumi xərclərin 80,3%-ni təşkil etməklə 76,2% icra edilmiş və ya 1963,6 min manat təyinata qarşı kassa icrası 1495,4 min manat olmuşdur. 2008-ci ildə bu maddə üzrə kassa icrasının aşağı səviyyəsi vakant olan 1 auditor, 40 inzibati və 1 yardımçı vəzifələrin maliyyə təminatları ilə bağlı olmuşdur.

"Malların (iş və xidmətlərin) satın alınması" bölməsi smeta xərclərinin tərkibində 14,1% təşkil etməklə 75,4% icra edilmiş və ya 344,4 min manat təyinata qarşı kassa icrası 259,8 min manat olmuşdur ki, bu vəsaitdən də "İdarənin saxlanılması" köməkçi bölməsinə 61,2 min manat, "Ezamiyyə xərcləri" köməkçi bölməsinə 106,8 min manat, "Nəqliyyat xidmətləri haqqının ödənilməsi" köməkçi bölməsinə 44,2 min manat, "Kommunal və komunikasiya xidmətlərinin ödənilməsi" köməkçi bölməsinə 19,7 min manat, "İstehlak mallarının və materiallarının alınması" köməkçi bölməsinə 27,9 min manat xərclənmişdir. Sonuncu köməkçi bölmə üzrə vəsaitlər Palatanın inventar və avadanlıqlarla təminatının və əməkdaşların iş şəraitinin yaxşılaşdırılması üçün istifadə edilmişdir. Belə ki, 2008-ci ildə Palataya 10 kompüter dəsti, 11 noutbuk, 34 printer, 9 Scanner tipli printer, müxtəlif növ fakslar, ofis avadanlıqları alınmışdır.

"Təqaüdlər və sosial müavinətlər" bölməsi smeta xərclərinin tərkibində 0,8 təşkil etməklə 90,0% icra edilmiş və ya 21,0 min manat təyinata qarşı kassa icrası 18,0 min manat olmuşdur.

"Digər xərclər" bölməsi smeta xərclərinin tərkibində 2,9% təşkil etməklə 83,0% icra edilmiş və ya 72,2 min manat təyinata qarşı kassa icrası 59,9 min manat olmuşdur ki, bu vəsaitdən "İcarə və muzdlu xidmətlər" paraqrafına 53,7 min manat, "Sair müxtəlif xərclər" köməkçi bölməsinə 6,2 min manat vəsait xərclənmişdir.

“Qeyri-maliyyə aktivlərinin alınması” bölməsi smeta xərclərinin tərkibində 1,7% təşkil etməklə 92,5% icra və ya 42,5 min manat təyinata qarşı kassa icrası 39,3 min manat olmuşdur.

Palata üçün müvafiq iş şəraitinin yaradılması üçün ayrılmış inzibati binanın yenidənqurulması ilə əlaqədar olaraq dövlət büdcənin əsaslı vəsait qoyuluşu xərclərində bu məqsədə 4,0 milyon manat məbləğində vəsait nəzərdə tutulmuş və istifadəsi təmin edilmişdir.